# SƏMAVİ HƏDİYYƏLƏR

3-cü kitab



بسم الله الرحمن الرحيم

Bismillahir Rəhmanir Rəhim

# Səmavi hədiyyələr

## İslam təlim-tərbiyəsi

## Üçüncü kitab

مَنْ عَمِلَ صَالِحًا مِنْ ذَكَرٍ أَوْ أُنْثَىٰ وَهُوَ مُؤْمِنٌ فَلَنُحْيِيَنَّهُ حَيَاةً طَيِّبَةً ۖ وَلَنَجْزِيَنَّهُمْ أَجْرَهُمْ بِأَحْسَنِ مَا كَانُوا يَعْمَلُونَ

**“Mömin olub yaxşı işlər görən (Allaha itaət edən) kişi və qadına (dünyada və axirətdə) xoş həyat nəsib edəcək və etdikləri ən yaxşı əməllərə görə mükafatlarını verəcəyik”.**

**(Qurani-Kərim, Nəhl surəsi, 97-ci ayə)**

Uca Yaradanımız tərəfindən həzrət Muhəmməd Peyğəmbərə (s) göndərilmiş İslam dini özündə etiqadlar, əxlaq, şəriət hökmləri və qayda-qanunları ehtiva edir. İnsan gözəl həyat yaşayıb Allaha yaxınlaşmaq üçün məhz bunlara ehtiyac duyur. İslam təlimlərinin əsas mənbəyi Quran, həzrət Peyğəmbərin (s) və onun həqiqi davamçıları sayılan məsum İmamların (ə) sünnəsi və sağlam ağıla əsaslanır. Bunu nəzərə alaraq, İslam maarifini öyrənmək hər bir müsəlman üçün zəruridir.

Əlinizdə olan bu kitabın hazırlanmasında başlıca məqsəd yeniyetmələrin müqəddəs İslam təlimləri əsasında ağıl, iman, elm, əməl və əxlaq baxımından düzgün şəkildə yetişdirilməsidir. Belə ki, bunun sayəsində onlar öz mövqelərini həm özlərinə, həm Allaha, həm bəndələrə, həm də yaradılışa qarşı düzgün şəkildə anlayıb cəmiyyətdə fərdi, o cümlədən ictimai mövqe nümayiş etdirməyi bacarsınlar.

Uca Allahdan dini vəzifələrin yerinə yetirilməsində hamıya uğurlar arzu edirəm.

**Professor Ərafi**

## Bismillahir Rəhmanir Rəhim

**Bağışlayan və mehriban Allahın adı ilə. O, insana Quranı öyrətdi. Həqiqət axtarmaq nemətini və Özünü tanımaq nemətini bəxş etdi.**

Rəbbimiz bizə İslam təlim-tərbiyəsi sahəsində uşaqlara, yeniyetmələrə və xidmət etmək şərəfini nəsib etdi.

MSEN (MUSLİM SCHOOLS EDUCATİON NETWORK) böyük alimlərin rəhbərliyi altında insanlara dini-əxlaqi dəyərləri təqdim edən bir qurumdur. Qurumun əsas fəaliyyəti gələcəyin qurucuları olan bu günkü nəslin əxlaqi və mənəvi baxımından yetişdirilməsində müəllim, valideyn və şagirdlərlə həmkarlıq etməkdən ibarətdir. Aşağıda bir sıra məqsədlərimizi təqdim edirik:

* İslam təlim-tərbiyəsinin tədrisi üçün aydın və gözəl bir hədəf bəyan etmək;
* Mənbələr, ixtisaslar və təcrübələrin mübadiləsi üçün geniş bir ədəbiyyat təqdim etmək;
* Əxlaqi və mənəvi bir dəyişikliyin formalaşmasında əhatəli bir ortamın yüksəldilməsi;
* İslam təlim-tərbiyəsinin kursu, məzmunu, metodları və dəyərləndirilməsi üçün çalışmaq.

Bu qurumun əsas məqsədi mənəvi dəyərlərin öyrənilməsində yüksək dizaynla hazırlanmış kamil bir məcmuəni təqdim etməkdir. Allahın mərhəməti və yüksək səviyyəli kadrların həmkarlığı ilə bu məqsədə doğru önəmli bir addım atılmışdır.

Bu qəbildən olan kitablar əsasən mötəbər İslami mənbələrə əsaslanmaqla yanaşı maraqlı və cəlbedici metodlardan istifadə edərək etiqad prinsipləri, əxlaq və dini hökmləri ehtiva edir. Bu məcmuə əsasən İslamın əsas meyarlarına – ağıl, mənəviyyat, mötədillik və sülhə əsaslanaraq tərtib edilmişdir.

Yeri gəlmişkən, bu böyük işdə bizimlə əməkdaşlıq etmiş bütün həmkarlara, xüsusilə də professor Ərafi, doktor Məhəmməd Məhəmmədian, doktor İbrahimi və cənab Fəyyaziyə təşəkkür etməyi özümüzə borc bilirik.

Habelə MSEN-dəki həmkarlarımızın akademik dəstəyinə, xüsusilə doktor Əzhər Həsənrza, Bilal Rizəvi, Nəzirə Musa, Səfinə Səadət, Nazənin Davdani, Şahin Heydər, Sima Cəmaləddin, Laden Razeqi və Şəhrbanu Cəfəriyə bu məcmuənin öz məqsədinə çatmasında misilsiz zəhmətlərinə görə təşəkkür edirik.



**İsa Cahangir**

**MSEN**





# Mündəricat



Dərs 1 Kölgə və Sara 8


Dərs 2 Günəş kəndinin məktəbi 10


Dərs 3 Ən mehriban dost 12


Dərs 4 Həmişə mənimlə 14


Dərs 5 Bizim geyimimiz 18


Dərs 6 Ən doğru qərar 20


Dərs 7 Bərəkətli uşaq 22


Dərs 8 .......... 24


Dərs 9 Mən artıq həddi-büluğa çatmışam... 28


Dərs 10 Nə əzəmətli, nə gözəl! 30


Dərs 11 Təzə çörək 32


Dərs 12 Peyğəmbərin təbəssümü 34


Dərs 13 "Təbiətin uşaqları" 36


Dərs 14 Onu xatırladır... 40


Dərs 15 Onuncu gün 44


Dərs 16 Qəhrəman qadın 46


Dərs 17 Səccad və canamaz 48


Dərs 18 ...intizarında 52


Dərs 19 Bu gecələr 54


Dərs 20 Müsəlmanların bayramı 56


Dərs 21 İşin sonu 58


Dərs 22 Xoş sənin halına! 60


Dərs 23 Ən bilikli insan 64


Dərs 24 Xəstə ziyarəti 66


Dərs 25 Mehriban ev sahibi 68


Dərs 26 Ata ilə görüş 70


Dərs 27 Salam vermək əvəzinə... 72


Dərs 28 O mehribandır 76

**Salam, gözəl dostum!**

Yaxşı bilirsən ki, bir-birimizə ilk sözümüz "Salam"dır. Biz bütün söhbətlərimizə məhz bu gözəl sözlə başlayırıq. Sənin gözəl və mehriban simanı gördüyümə görə çox şadam!

Uca Allahdan istəyim odur ki, həmişə şad, xürrəm olasan!

Düzünü deyim ki, bu il də sənə hədiyyə gətirmişəm.

Elə isə bekar dayanma! “Bismillah” deyərək hədiyyəni aç. “Səmavi hədiyyələr”i deyirəm!

Ümid edirəm ki, onu çox bəyənəcək və ondan layiqincəsinə faydalanacaqsan!

**Allaha əmanət ol!**



# Dərs 1

# Kölgə və Sara

Hava günəşli idi. Sara öz balaca kölgəsini yerdə görür. O, yelləncəyə minir. Kölgəsi də yellənməyə başlayır. Hər ikisi yelləncəyin yuxarı başından üzüaşğı hərəkət edir. Qız dayandıqda kölgəsi də dayanır.

Sara kölgəsinə deyir: "Sən kimsən? Nə üçün mən nə iş görürəmsə, sən də onu edirsən?" Ancaq kölgədən səs çıxmır. Sara hərəkətsiz dayanır. Kölgə də heç bir hərəkət etmir. Saraya maraq güc gəlir, soruşur: "Sən nə yeyirsən? Nə geyinirsən? Nə vaxt yatırsan?" Ancaq kölgə bu dəfə də səssiz qalır.

Sara yenidən soruşur: "Mənə de görüm, sən heç danışa bilirsən?..."

Sara nə qədər sual versə də cavab ala bilmir. O, daha kölgə ilə danışmaqdan ümidini üzüb oynamağa davam edir. Kölgə də oynamağa davam edir.

***

Bir qədər ötür. Sara yorulub susayır. O, kölgədən soruşur: "Sən də susamısan?" Ancaq ondan cavab ala bilmir. "Deyəsən, sən nə acırsan, nə də susayırsan. Xoş halına! Kaş mən də sənin kimi olaydım!" deyir Sara.

***

Ana bir oturacaqda əyləşmişdir. Özü ilə yemək və su götürmüşdür.

Sara əllərini yuyub sudan içdikdən sonra deyir: "Nə sərin sudur! ... Salam olsun Hüseynə!" O daha sonra anasının gətirdiyi yeməyi yeyib Allaha şükür edir.

Sara öz-özünə deyir: "Bəh-bəh, nə dadlıdır! Kaş dostum kölgə də mənim kimi bunlardan yeyib ləzzət ala biləydi!"



## İndi mənə de görüm!

Saranın ləzzət ala biləcəyi daha nələri tanıyırsan?



## Artıq bacararsan

Əgər istəsən, əllərini günəş şüasının qarşısında irəli uzadıb divarda istədiyin gözəl kölgəni yarada bilərsən.

# 2 Günəş kəndinin məktəbi

Gözəl bir payız səhəri idi. Kəndin havası getdikcə soyumağa başlayırdı.

.......................................................................................................

Dəstə-dəstə məktəbə gedirik. Əvvəlki günlərdən daha sevincliyik. Öz müəllimimizlə ekskursiyaya getmək planlaşdırılb.

.......................................................................................................

Beş dəstəyə bölünüb dəstə başçılarının rəhbərliyi ilə kəndin kənarında yerləşən imamzadəyə doğru hərəkət edirik.

İmamzadəni ziyarət etdikdən sonra axşama qədər orada qalıb təbiətin gözəlliyi və o tərəflərdə gördüyümüz bitkilər haqqında araşdırma aparmaq istəyirik.

.......................................................................................................

İmamzadə kənddən bir qədər aralıda, dağın ətəyində yerləşir. Ora gedib çata bilmək üçün dar bir taxta körpüdən keçməliyik. Ehtiyatla və sırayla körpüdən keçməyə başlayırıq.

Sonuncu dəstə körpüdən keçərkən birdən onun bir hissəsi sınıb tökülür. Uşaqlardan bir-ikisi çaya düşür. Çayda su çox olmasa da, uşaqların qəflətən suya düşməsi onları qorxudur.

Onlar qışqırmağa başlayırlar.

.......................................................................................................



Müəllim dərhal uşaqların köməyinə tələsir.

Uşaqlardan biri möhkəm qorxub özündən gedir. Müəllim onu çiyninə alıb imamzadənin içərisinə aparır.

..................................................................

İmamzadə uşaqların səs-küyü ilə dolur.

Onların yaşlı xidmətçisi uşaqları odun sobasının ətrafına toplayır.

....................................................................................................

Bir-birimizin yanında əyləşirik. Artıq narahatlıq aradan gedib. Müəllim bizə baxıb gülümsəsə də gözləri yaşlıdır. Salamat olduğumuz üçün Allaha şükür edirik!

Dostların arasında, imamzadədə və müəllimlə bir yerdə olmaq necə də ləzzət və rahatlıq bəxş edir!

....................................................................................................



## Artıq bacararsan

Əgər istəsəniz, əhvalatı davam etdirə və ya məktəb ekskursiyasında qarşılaşdığınız başqa bir hadisəni qeyd edə bilərsiniz. Yaxud da ona bənzər digər bir əhvalat danışa bilərsiniz.



## İndi mənə de görüm!

Ac-susuz bir adam, yorğun və narahat bir insan, tənha bir uşaq, yolunu azmış bir şəxs, çarəsiz xəstə və ... necə sevinə bilər? Onların hər birinə ən çox nə ləzzət edər?

Özünüzün və ya dostlarınızın həyatından buna bənzər başqa nümunələr də qeyd edə bilərsinizmi?

# 3 Ən mehriban dost



● Ona bax!
Necə də kiçikdir!
Necə də sürətlə gedir!
O boyda iri dəni özü ilə necə apara bilir?
Yuvasından uzun müddət aralı qaldıqdan sonra ora necə qayıda bilir?!
Doğrudan, bu bacarıqları ona kim verib?

● Ona bax!
İnsanın heç bir barmağı boyda da deyil, ancaq tullanmaq üçün bir cüt incə qanadı, qüvvətli ayaqları var. İki iri gözü, iki də gizli qulağı ... var.

● Ona bax!
Nə qədər zərif və incədir!
Gör bir budaqdan digərinə necə uçub oxuyur!
O, həddən artıq balacadır, ancaq həm öz yeməyini təmin edir, həm də balalarının.
Sanki kimsə onun qeydinə qalıb heç vaxt onu unutmur.





● İndi isə özünə bax!
Daha çox, daha
diqqətlə bax!
Sənin də bir çox
bacarıqların var. Sən
................ bacarırsan.



## İndi mənə de görüm!

Bizim nə kimi bacarıqlarımız var?
Bu bacarıqları bizə kim verib?
Nə üçün Onu ən mehriban dost hesab edirik?

## Artıq bacararsan

Böyüklərlə birlikdə dağa, çölə və ya meşəyə getdikdə yaşamaq üçün çalışan xırda canlılara diqqət edib Allahın nə qədər mehriban olduğunu anlaya bilərsiz.
Gördüklərinizi yazın və dostlarınıza danışın.

# 4

# Həmişə mənimlə



Mən gözəl dünyanı görürəm. Gündüz mavi səmanı, parlaq günəşi, gecə isə parlaq ayı, ulduzları görürəm.

Mən coşub-daşan çayları, yağan yağış damcısını, ağacların kölgələrini, bülbüllərin cəhcəhini və ......... – bütün bunları sevirəm.

Səni sevirəm, ey dünyanı Yaradan, ey mehriban Yaradan!

Mən kiçik olsam da bilirəm ki, tənha deyiləm.
Mən acdıqda Sən ................................
Mən susadıqda Sən ............................
Nə vaxt ..............................................
Bilirəm ki, Sən heç vaxt məni unutmursan!
Məni sevirsənvə həmişə mənimləsən!
Mən də ..........................................



## İndi mənə de görüm!

Allaha necə təşəkkür etmək olar?



## Artıq bacararsan

İndi artıq mehriban olan Allahla danışa bilərsən.

Ey mehriban Allah!
Mən Səni sevirəm. Balaca ürəyimi Sənə tapşırıram ki, Sənin mehribanlığınla tanış olsun və o da mehriban olsun!

Şeirə uyğun ad seçin

..............................



Hər yağış damcısı,
Hər qar danəsi,
Ümmanlar qədər
Söz deyir mənə.

***

O nurlu günəş,
Bu yaşıl meşə
Bir hədiyyədir
Rəbbimdən mənə!

***

Sənin pak adın
Şerə bal qatır,
Şirin adların
Dillərə yatır.

***

Gülə, bülbülə
Mehriban oldun,
Bağ-bağçalara
Bir bağban oldun.

***

Gül tək adını
Hər sübh qoxlaram,
Qəlbimdə yalnız
Səni saxlaram!

Həmid Hunərcu



# 5 Bizim geyimimiz



Dünyadakı xalqların hər birinin öz həyat tərzi var.
Onların adət-ənənələrinə uyğun olaraq geyim tərzləri də fərqlənir.
Biz müsəlmanların da özümüzə xas olan geyim ədəblərimiz var. Sən bu barədə nə bilirsən?



## İndi mənə de görüm!

Bir müsəlman kişi və bir müsəlman qadının geyimi necə olmalıdır?



## Artıq bacararsan

Müsəlman kişilərin və müsəlman qadınların geyim tərzi barədə araşdırma aparıb daha ətraflı məlumat əldə edə bilərsən.

# 6 Ən doğru qərar



Kitablar dəftərləri cırmaq üçün onların ardınca qaçır. Dəftərlər isə mürəkkəblə əlbir olub kitablara hücum çəkir. Qələmyonan rəngli karandaşları yonmaq üçün onları güdür. Karandaşlar ağlaya-ağlaya öz qablarını axtarsa da onu tapa bilmir.

Pozan dəftərdəki yazıları o qədər sərt pozur ki, az qalır dəftərin vərəqləri cırılsın.

* * *

Məcid narahat halda yuxudan oyanır. O, tələm-tələsik halda çanta və kitablarının ardınca gedir. Onlar hələ də öz yerindədir. Məcid üzünün tərini silib rahat bir nəfəs alır. O, axşamdan çanta və kitablarını səhmana saldığına görə sevinclidir! Birdən Məcidin gözü ətrafa sataşır! Öz-özünə deyir:

Ah, axı bu nə haldır!
Corablar orada!
Şalvar burada!
Hələ köynəyə bax!
Bununla belə, hələ də hamının səni sevəcəyinə ümid edirsən?!

* * *

Ana otaqdan səslənir: "Oğlum, oyanmısan? Kiminlə danışırsan?"

- Salam ana can! Heç kiminlə danışmıram, özümlə danışıram.
- Gəl səhər yeməyini ye.
- Baş üstə, ana can! İcazə ver əvvəlcə əl-üzümü yuyub otağı səliqəyə salım.



## İndi mənə de görüm!

Əziz şagirdlər! Bu əhvalatdan nə öyrəndiniz?
Otağımızı səliqəli saxlamağımız nə qədər önəmlidir?



## Artıq bacararsan

Bəlkə sən də bu barədə hansısa maraqlı bir xatirə, yaxud bir əhvalat və ya ........... danışmaq istəyirsən?

# 7 Bərəkətli uşaq



Qəbilə üzvləri hər il olduğu kimi bu il də Məkkəyə gedirlər. Onlar bir uşaq götürüb öz evlərinə aparmaq istəyirdilər ki, ona süd verib böyütməklə qazanc əldə etsinlər. Həlimə ilə həyat yoldaşı da Məkkəyə gedənlər arasında idi. Onların dəvəsi zəifləmiş, bir damcı da süd vermirdi.

Bir gecə yolda qalası olurlar. Ac körpələrinin ağlamaq səsindən sübhə qədər gözlərinə yuxu getmir.

***

Aminə istəyirdi ki, onun yetim körpəsi də digər uşaqlar kimi səhranın təmiz havasında böyüyüb sağlam və möhkəm olsun. Ancaq onun körpəsi anasından başqa heç bir qadının qucağında sakit dayanmır.

***

Bədəvi qadınlarından hərəsi bir uşağı götürüb özü ilə aparmaq istəyir. Həlimə narahatdır, çünki hələ də özü ilə aparmağa uşaq tapa bilməyib. Axırda o, Aminənin körpəsini qucağına alır. Körpə onun qucağında sakit qalır...

Qəbilə adamları öz evlərinə qayıdırlar.

Aminə uşağının ayrılığına görə darıxıb için-için ağlamağa başlayır.

***

Həlimə deyir: "Bu südəmər körpə bizim evə gələn gündən həm o, həm də öz uşağım kifayət qədər süd içib doyur. Biz özümüz də ac qalmırıq. Dəvəmizin südü o qədər çoxalıb ki, ailəmizi artıqlaması ilə təmin edir. Həqiqətən də bizim bəxtimizə çox bərəkətli uşaq çıxıb!"



## İndi mənə de görüm!

Bu bərəkətli uşaq kim olub?

O, Həlimənin ailəsinə nə kimi xeyir-bərəkət gətirib?



## Artıq bacararsan

Sən həzrət Məhəmmədin (s) uşaqlıq dövrü barədə daha çox məlumat öyrənə bilərsən. Bunun üçün .................. edə bilərsən.


8

O, hələ balaca uşaqdır. Həlimənin evində yaşayır. Bu gün də səhər tezdən yuxudan oyanıb. Çadırın qarşısında dayanıb Həlimənin qoyunları otarmağa aparan uşaqlarına baxır.

Həlimə soruşur: "Məhəmməd can, niyə belə üzgünsən?" O isə cavab verərək deyir: “Ana can, qardaşlarım qızmar günəşin altında işlədiyi halda, mənim çadırın kölgəsində istirahət etməyim düzgün deyil!”

## Artıq bacararsan

Sən bu əhvalat barədə dostlarınla söhbət edə bilərsən.





O, bu gün Həlimənin uşaqları ilə birlikdə çölə getmək istəyir. Həlimə onun saçlarını darayıb təmiz paltarlar geyindirir, boynuna da iri rəngli muncuqları olan bir boyunbağı taxır. O soruşur: "Ana can, bu, nədən ötrüdür?"
Həlimə deyir: “Muhəmməd can, bu boyunbağı çöldə səni təhlükələrdən qoruyar!”
O, boyunbağını ehmalca boynundan çıxarıb Həliməyə verərək deyir: “Ana can, bu boyunbağı və onun iri dənələri heç nəyə qadir deyil. Məni bütün təhlükələrdən qoruyan bir varlıq var”. Bunu deyib Həlimə ilə sağollaşaraq çölə gedir.
Həlimə onun bu sözündən təəccüblənərək fikrə gedir...

## İndi mənə de görüm!

Həlimə nə barədə fikirləşir?

## Oxu üçün

Həzrət Muhəmməd (s) doğru, etibarlı, gözəl və mehriban bir insan olmuşdur.
O, digər adi insanlar kimi yaşamışdır.
Bizim hamımız kimi yemək yemiş, su içmiş, yatmışdır.
Bir gün dünyaya gəlib, bir gün də dünyadan getmişdir.
Uşaqlıqda o da digər uşaqlar kimi oynamış, arada ağlayıb, arada gülmüşdür. Ancaq o, bizim Peyğəmbərimizdir (s). Böyük insan və Allahın seçilmiş bəndəsi!
O, Allahın göstərişlərini camaata çatdırmış, insanları yaxşı işlərə dəvət etmişdir. Biz öz Peyğəmbərimizi (s) həmişə yaxşılıqla yad edirik.
Böyük Allah həzrət Mühəmmədə salam göndərir. Biz də onun adını çəkdikdə salavat və ya “Səlləllahu əleyhi və alih” deyirik.

# 9 Mən artıq həddi-büluğa çatmışam!

Çox kiçik olduğum vaxtlar .............



Bir az böyüdükdə ............................



Sonra yavaş-yavaş anladım ki, ..........



Mən indi artıq böyümüşəm. İstəyirəm ki, böyüklər kimi mən də mehriban Allaha ibadət edim. Mən artıq həddi-büluğ yaşına çatmışam. Dini öhdəliklərimi yerinə yetirməyə hazıram. İstəyirəm ki, ikirükətli, üçrükətli və dördrükətli namazları düzgün şəkildə qılım.



## İndi mənə de görüm!

**Namazlarımızı düzgün şəkildə qıla bilmək üçün nə etməliyik?**



## Artıq bacararsan

Sən də beş vaxt namazı uyğun olan zamanda məktəbdə, məsciddə və ya evdə qılaraq Allaha ibadət edə bilərsən.

# 10
## Nə əzəmətli, nə gözəl!

Dəstəmaz almısız.
Gözəl örtüklərə bürünmüsüz.
Canamazları açıb sərmisiz.
Gözəl rəfiqələrinizin yanında əyləşmisiz.
Dini nəğmələr oxuyursunuz.
Şirniyyat yeyirsiniz.

İndi artıq siz də böyüklər kimi mehriban Allahla söhbət edirsiz.
Dua edir, namaz qılırsınız.
Siz də ............................................................. bilərsiniz.
Necə gözəl olmusuz!
Necə də böyümüsüz!
İndiyədək heç bu qədər sevinmişdinizmi?



Nə üçün bu günü bayram olaraq qeyd edirsiz?





# 11 Təzə çörək

Ana babanın mehribanlığı barədə danışır. Çoxdandır ki, onu görmür. Onun üçün çox darıxıb.

O tərəf-bu tərəfə gedib-gəlir. Odun gətirib təndir qalayır. Başını bu işlərlə qatır ki, darıxmağı azalsın.

***

Evin təndiri qızmışdır.

Ana xəmirləri bir-birinin ardınca yayıb təndirə yapır. Uşaqlar ona kömək edir və babaları haqqında danışdıqlarına qulaq asırlar.

***

Təzə çörəklər bir-birinin ardınca təndirdən çıxır. Ana çörəklərin bir neçəsini parçaya büküb evdən çıxır.

O, atasının yanına getmək üçün şəhərdən çıxır. Qarşılaşdığı adamlardan onu xəbər alır.

Uzaqdan gözü atasına sataşır.

Dodaqlarına təbəssüm qonur. Onun lap yaxınlığına gedib ədəblə arxasında dayanır:

-Salam ata!

Allahın peyğəmbəri (s) arxaya çevrildikdə sevindiyindən gözləri parıldayır! Sonra qızının halını xəbər alır.

Fatimə çörək süfrəsini atasının qarşısında yerə sərir. Arpa çörəyinin ətri ətrafa yayılır.

Ata təəccüblə təzə bişirilmiş çörəklərə baxır.

- Ata can, bir az çörək bişirdim. Sizsiz onları yeyə bilməzdik. Bunları sizin üçün gətirmişəm.

Qızının mehribanlığı atasının gözlərini yaşardır.

Çörəkdən bir tikə qopardıb sevgi dolu bir təbəssümlə buyurur:

-Fatimə can, uzun müddət aclıqdan sonra bu, atanın yediyi ilk yeməkdir.



## İndi mənə de görüm!

**Həzrət Fatimeyi-Zəhra (salamullahi əleyha) barədə nə bilirsən?**





## Oxu üçün

Həzrət Fatimə (s.ə) İslam peyğəmbərinin (s) sevimli qızıdır. O və atası bir-birinə qarşı böyük məhəbbət və ehtiram bəsləyirlər.

Fatimə həzrət Əlinin (əleyhissəlam) həyat yoldaşı, məsum İmamlarımızın anasıdır.

O, camaata kömək edib yol göstərirdi. Atası kimi, o da mömin və Allaha ibadət edən bir şəxs idi.

O, ən sədaqətli həyat yoldaşı, ən mehriban ana idi.

Fatimeyi-Zəhra (s.ə) dünyanın ən dəyərli xanımıdır.

# 12

# Peyğəmbərin (s) təbəssümü

O qədər qorxmuşdu ki, yaxşı uça bilmirdi.

Anası ona görə narahat olsa da, qorxusundan özünü bir daşın arasında gizlətmişdi.

Bir kişi yavaşca əyilib ana sərçəni daşın arasından götürür. Zavallı quş qol-qanad çırpır. Uçmağa çalışsa da, kişinin əlindən çıxa bilmir. Daha qol-qanad çırpmır. Deyəsən, ağlayır. Ancaq daha çox balasına görə narahatdır. Kişi digər əli ilə sərçənin balasını da götürüb dostlarına göstərir. Onlardan biri əylənməkdən ötrü barmağı ilə sərçənin başına vurur. Digərləri də gülüşür. Ana sərçə gözlərini yumur.

Allahın peyğəmbəri həzrət Muhəmməd (s) bu səhnəni gördükdə əsəbləşir. Onun yanındakıların da üz-gözü turşuyur. Allahın peyğəmbəri (s) buyurur: "Nə üçün bu quşu incidirsiniz? Balasını ona qaytarın!" Kişi utandığından başını aşağı salır. Sonra isə əllərini açır.

Sərçələr azad olurlar. Bir qədər mehriban peyğəmbərin başı üzərində uçuşduqdan sonra uzaqlaşırlar. Həzrət Muhəmməd (s) və dostlları sərçələrin uçmasına tamaşa edirlər. Hamının üzündə təbəssüm var idi...



## İndi mənə de görüm!

Səncə, sərçələr nə üçün Peyğəmbərin (s) başı üzərində uçurdular? Bununla onlar nə demək istəyirdilər?





## Artıq bacararsan

Heyvanlara yardım məqsədilə müxtəlif yollar təklif edə bilərsən.

# 13

# "Təbiətin uşaqları"

"Təbiətin uşaqları" şagirdlərin heyvanlar və gözəl bitkiləri qorumaq üçün təşkil etdiyi bir dəstənin adıdır. Onlar istəmirlər ki, kimsə Uca Allahın yaratdıqlarını incitsin.

Məcid: Uşaqlar, bura gəlin! ... Bu gözəl gülə baxın, onun gövdəsi sınıb.
Möhsün: Bu ağaca baxın, kimsə onun qabığını soyub.
Məhəmməd: Bura baxın, necə çirklidir!
Möhsün: Belə olmaz, bir iş görmək lazımdır!



## İndi mənə de görüm

Onlar nə etmək istəyirlər?





## Artıq bacararsan

Sən də dostlarınla birlikdə “Təbiətin uşaqları” dəstəsi kimi bir dəstə təşkil edə bilərsən.
Sizin dəstəniz hansı işləri görəcək?

Görəsən, Allahın peyğəmbəri (s) onların işindən razıdırmı?








# 14

## Onu xatırladır ...

Üzərliyin, gülün, gülabın ətri,
Təbilin, sincin, mərsiyənin səsi,
Yaşılın, qaranın, qırmızının rəngi ...

Bunlar sənə nəyi xatırladır?

Qara köynəyini geyinirsən,
Qırmızı bandını alnına taxırsan,
Matəm şalını çiyninə atırsan,
Kiçik yaşıl bayrağını götürürsən,
Anandan icazə alıb evdən çıxırsan.



Hara gedirsən?
Nə üçün gedirsən?

Uzun müddət piyada yol gedirsən,
Təbillərin, sinclərin sədası altında sinə vurursan.



Evə qayıdarkən öyrəndiyin mərsiyəni dodağının altında zümzümə edirsən.

Nə üçün ağlayırsan?

Nə üçün sinə vurursan?

Axı nə baş verib?



## Artıq bacararsan

Öz kənd və ya şəhərinizdə İmam Hüseyn (əleyhissəlam) üçün təşkil olunmuş əza məclisləri barədə təqdimat hazırlaya, yaxud bu barədə inşa, hekayə və ya ... yaza bilərsən.





## İndi mənə de görüm!

Bu yazı kimin barəsindədir?
Sən onun haqqında nə bilirsən?

Ona baxmaq istədikdə başımı yaxşı-yaxşı yuxarı qaldırmalıyam.

Onun çiyinləri üzərində oturduqda özümü hündür bir dağın başına qonmuş xırda göyərçin kimi hiss edirəm.

Üzü aydan da gözəldir! İri və qara gözləri var, həmişə gülümsəyir.

Güldükdə ağ dişləri mirvari dənələri kimi parıldayır. Onun gülüşlərini çox xoşlayıram! ...

Ancaq düşmən cərgəsinə tərəf baxan zaman onun qorxusundan hamı qaçmağa başlayır. O, həmişə bizi fikirləşir, bizi qoruyur, qoymur nəyəsə görə narahat olaq.

Bir dəfə yıxıldım. O mənə tərəf elə qaçdı ki, toz-torpağın içində görünməz oldu! Məni qucağına alanda bir damcı göz yaşı yanağıma düşdü. Məni tez-tez öpürdü, əlini nəvazişlə başıma çəkirdi. Onun möhkəm və qüvvətli qolları arasında özümü elə rahat hiss edirdim ki, nə qədər ağrıdığımı da unutdum...

O, bizim yatdığımız çadırları qoruyur.
Düşmən cərgəsindən bir an da gözünü çəkmir.
Bizim susuz olduğumuza görə çox narahatdır.

O, İslam ordusunun bayraqdarıdır.
Əmim Abbası deyirəm.



# 15 Onuncu gün

**İmam Hüseyn əleyhissalam**
Atası həzrət Əli əleyhissəlam
Anası Peyğəmbərin qızı həzrət Zəhra salamullahi əleyha
Bacısı həzrət Zeynəb salamullahi əleyha
Qardaşı İmam Həsən əleyhissəlam

O, belə bir ailədə tərbiyə alıb.
Necə də dəyərli və sevilməli bir ailədir!

**Onun dostları**
İmanlı, fədakar, şücaətli, mehribandırlar.
Öz İmamına tabe olub ömrünün son anına qədər hər yerdə, hər zaman onunla birlikdədirlər.



**Onun düşmənləri**

İmansız, nadan, zülmkar və ...
Allahın və Peyğəmbərin düşmənləridir

Onlar İmam Hüseynə (ə) qarşı vuruşdular.
Bu döyüş Kərbəlada baş verib.
İmamın tərəfdarları yetmiş iki nəfər olsa da, düşmənlərin sayı minlərlə idi.
İmam Hüseyn (ə) və tərəfdarları qəhrəmancasına vuruşub axırda nadan və zalım insanlar tərəfindən şəhid edildilər.
Onlar məhərrəm ayının onunda, Aşura günündə günorta vaxtı, qızmar günəş altında şəhid oldular.



# 16
# Qəhrəman qadın

Ağlayanda o bizi sakitləşdirir.
Yorulanda bizi qucağına götürür.
Yıxılanda bizə nəvaziş göstərir.



Düşmənlərimiz bizə nalayiq sözlər deyən zaman onun baxışlarından çəkinirlər.
Onlar bizi döysələr də, onun fəryadından lərzəyə gəlirlər.
Bizi incitsələr də, onun səsindən qorxurlar.



Biz hamımız yorğunuq, o da yorğundur, ancaq hələ də möhkəm addımlarla yeriyir.
Biz hamımız susuzuq. O, bizdən də susuzdur, ancaq onlardan su alıb içmir.
Ayaqları yara olub, ürəyi sınıb, ancaq hələ də gülümsəyir.
O istəmir ki, biz narahat olaq, bizim qəlbimiz sızlasın.
Zeynəb bibican
Səni ata kimi, əmilər kimi ...............
Və canımızdan da artıq sevirik.



## İndi mənə de görüm!

Həzrət Zeynəb (salamullahi əleyha) barədə daha nələr bilirsən?



## Oxu üçün

Həzrət Zeynəb (s.ə) İslamın əzəmətli xanımlarından biridir. O, Kərbəlada qardaşı İmam Hüseynlə (ə) birlikdə olmuş, onu dəstəkləmişdir. O, heç nədən qorxub çəkinmədən İslam dinini qorumağa çalışmışdır.
Həzrət Zeynəb Kərbəlada kiçik uşaqları və şəhidlərin ailələrini qorumuşdur. O, İmam Hüseynin (ə) şəhadətindən sonra öz sözləri ilə camaatı düşmənin zülmündən xəbərdar etmişdir.

# 17
## Səccad və canamaz

O gün sinifdə
Çaxnaşma idi,
Qumru tək gözlər
Yaş, giryan idi.

Müəllimimiz də
Qaranquş kimi
Qəmli hal idi.
Qumru tək gözü
Yaş, giryan idi.

Lövhədə müəllim
Şeir yazmışdı,
Cənnət ətirli
Gözəl bir şer.

Payız fəsliydi,
Bağlar güllüydü,
Bizə söz açdı
Həzrət Səccaddan.

Sonra mövzumuz
Kərbəla oldu.
Zeynəbin qəmi
Dil əzbər oldu.

Dua elədik
Bir gül ətirli,
Söhbətlər etdik
Biz qəm çətirli.

O gün sinifdə
Çaxnaşma idi,
Səccad, səccadə
Dərsimiz idi.

Həmid Hunərcu









## İndi mənə de görüm!

İndiyədək “Səhifeyi-Səccadiyyə” kitabını görmüsənmi?
Onun barəsində nə bilirsən?



## Artıq bacararsan

“Səccad” sözünün mənası barədə axtarış edib nə üçün İmam Zeynül-Abidinə (ə) belə bir ləqəb verildiyini öyrənə bilərsən. Hətta bu barədə dostlarına da məlumat verə bilərsən.



## Oxu üçün

İmanlı insanlar onun əməllərinə diqqət yetirməklə Allaha itaət etməyin yollarını öyrənirdilər.
Onun çox gözəl və ürəyəyatan səsi var idi.
O, Quran oxuduqda Mədinənin su daşıyanları çiyinlərindəki ağır tuluqlar ilə onun evinin qarşısında dayanıb uzun müddət oxumasına qulaq asırdılar. O, Muhəmməd Peyğəmbərin (s) Mədinəyə hicrətindən otuz səkkiz il sonra həmin şəhərdə anadan olub. Allah düşmənlərinə qarşı uzun müddət mübarizə apardıqdan sonra əlli səkkiz yaşında şəhid oldu.
Onun adı Əlidir.
İmam Hüseynin (ə) oğlu, müsəlmanların dördüncü imamıdır.
O, İmam Səccad, Zeynül-Abidindir (əleyhissəlam).

# 18
## ... intizarında




**O, İmam Hüseynin (əleyhissəlam) övladlarındandır. Dövrümüzün imamı, bizim yol göstərənimiz və dostumuzdur. O, mütləq gələcək ki, zalımlara qarşı mübarizədə xalqa başçılıq etsin. Bununla da pisliklər aradan gedəcək, dünyanı yaxşılıq və dostluqla dolduracaq.**

## Artıq bacararsan

Sən öz dostlarınla birlikdə imam Zamanın (əleyhissəlam) salamatlığı üçün dua edə bilərsən.



# 19

# Bu gecələr

Bu gecələrdə iftardan sonra xeyli insan buraya gəlir. Məhəlləmizdəki adamların çoxu buradadır. Dostlarımızın və tanışlarımızın əksəriyyəti burada görmək olar. Sinif yoldaşları, qonşular, müəllimlər, fəhlələr, həkimlər, məmurlar və ... hamı bir-birinin yanındadır. Eynilə böyük bir qonaqlıqda olduğu kimi.

Burada hamı bir-birinə salam verir, gülümsəyir və sevgi nümayiş etdirir.

Bu gecələrdə insanlar başqa vaxtlardan daha çox ibadətlə məşğul olurlar: namaz qılır, Quran oxuyurlar. Bəzi gecələri isə səhərə qədər oyaq qalıb dua edirlər. Başqa vaxtlarla müqayisədə bu gecələrdə burada gözəl sözlər eşitmək olar. Bu gecələrdə saçan ətirlər, salavat sədası və böyüklərin mehriban baxışları məni bura gəlməyə cəlb edir.



## İndi mənə de görüm!

Bura haradır?

Bu gecələr hansı gecələrdir?



## Artıq bacararsan

Oruc barəsində dostlarınla söhbət edə, yaxud Ramazan ayı ilə bağlı gözəl bir xatirə danışa bilərsən. Yaxud da ...



# 20 Müsəlmanların bayramı

Allahu əkbər ... Allahu əkbər ... La ilahə illəllah ... Allahu əkbər
Küçələrdə böyük coşqu var.
Ata-ana təmiz və ətirli paltarlar geyiniblər.
Anam deyir: "Əzizim, tez ol, indi mərasim başlayacaq".
Mən tez hazırlaşıram.
Anam bir gecə əvvəldən paltarlarımı yuyub ütüləmişdir. Corablarımı isə özüm yumuşam.
Anam canamazları götürür. Atam da döşənəcəkləri özü ilə götürür.

Bayram namazı başa çatıb. İnsanlar bir-birinə şirniyyat paylayaraq bayram münasibəti ilə təbrik deyirlər. Hamımız birlikdə təkbir deyirik: "Allahu əkbər, Allahu əkbər və lillahil-həmd ..."



## İndi mənə de görüm!

Ramazan bayramı sizin kənd və ya şəhərdə necə keçirilir?



## Oxu üçün:

Müsəlmanlar hər il Ramazan ayının sonunda Fitr bayramını qeyd edirlər. Onlar bu mərasimdə namaz qılıb dini şüarlar səsləndirirlər.
Bir ay uğurla oruc tutub Allahın əmrini yerinə yetirə bildiklərinə görə Uca Allaha şükür edirlər. Bayram namazında onlar Allahdan istəyirlər ki, bütün insanları pislik, əziyyət və zülmlərdən azad etsin. Ramazan bayramı müsəlmanların böyük bayramıdır!






EID


EID FESTIVAL



# 21
# İşin sonu



Sadiqi tanıyırsan?
O, mehriban və sevilləsi bir oğlandır.
Yaxşı işlər görür, şən və gülərüzdür.

Bu isə Möhsündür. O da yaxşı oğlandır. Ancaq düzünü bilmək istəsən, dünən bir az diqqətsizlik etdi və ...
Buna görə də o bu gün sevincək və fəal deyil.
Bu barədə sən nə düşünürsən?







## İndi mənə de görüm!

Onlar nə ediblər ki, bu qədər sevinirlər?



## Artıq bacararsan

Sən bu oğlanın gördüyü
işin sonu barədə dostlarınla
söhbət edə bilərsən.





# 22

## Xoş sənin halına!

Dünən gecə yaxşı yata bilmədim. İstəyirdim ki, səhər tez açılsın və mən anamla birlikdə qiymət kitabçamı almaq üçün məktəbə gedim. Bu gün məni görənlərin hamısı deyir: "Salam, mübarəkdir, xoş sənin halına!"

Ürəyim istəyir ki, bütün dostlarımı görüm. Ürəyim istyəyir ki, bütün dostlarım məni görsün. Axı belə bir günə çatmaq üçün mən çox əziyyət çəkib bu vaxtı gözləmişdim!

Nə yaxşı oldu ki, müəllim də buradadır!

Ona salam verirəm.

O, salamımı mehribancasına alıb deyir: “Yadındadır ilk dərs günü qiymət kitabçası barədə nə dedim? İndi zəhmətinin nəticəsini gördünmü?”

İlin ilk dərs gününü və müəllimin dediyi sözləri xatırlayıram.



## İndi mənə de görüm!

Kim həqiqətən sevinə bilər?



## Artıq bacararsan

Əgər istəsən, bu əhvalatın ardını özün yaza bilərsən.

..........................................................................................

..........................................................................................

..........................................................................................

..........................................................................................

..............................



# Yaxşılığın əvəzi

Bəzi vaxtlar etdiyimiz işlərə görə sevincək və məmnun, bəzi vaxtlar isə narahat və peşman oluruq. Axirət dünyasında da bəzi insanlar sevincək, bəziləri isə narahat olacaqlar. Bu onların dünyada gördüyü işlərin nəticəsidir.

Bizim səmavi kitabımız Quran bu barədə belə buyurur: "Kim azacıq yaxşı iş görərsə, axirət dünyasında onun mükafatını alacaq. Kim azca pis iş görsə, axirət dünyasında onun cəzasını çəkəcək".
"Cənnət" yaxşı iş görənlərin, Cəhənnəm isə pis iş görənlərin yeridir.



## İndi mənə de görüm!

Sən daha hansı yaxşı işlər görmək istəyirsən?



## Artıq bacararsan

Aşağıdakı şəkillərdə verilmiş əməllər barəsində dostlarınla söhbət edə bilərsən.











# 23

# Ən bilikli insan



Xristianlar ildə bir dəfə öz rəhbərlərinin görüşünə gedirdilər. O gün həmin görüş günü idi. İmam Mühəmməd Baqir (ə) və oğlu da özlərini tanıtdırmadan xristianlarla birlikdə görüşə gedirlər. İmam Muhəmməd Baqirin (ə) gözəl siması xristianların rəhbərinin diqqətini cəlb edir. O, üzünü imama tutaraq soruşur: "Siz iki nəfər, xristiansınız, yoxsa müsəlman?

İmam cavab verir: "Müsəlmanıq".

- Alimlərdənsiniz, yoxsa adi insanlardan?
- Savadsız deyilik.
- Mənim sizdən sual etməyimi istəyirsiniz, yoxsa siz məndən sual edirsiniz?
- Siz soruşun. Nə soruşsanız, cavab verərəm.

Qoca alim heyrətlə ətrafındakı insanlara baxıb dedi: “Qəribədir, müsəlman bir kişi bütün suallara cavab vermək istəyir”.

Məclisdə olanların hamısı heyrətlə İmam Mühəmməd Baqirə (ə) və onun oğluna baxırdı.

Qoca alim çətin suallar verdi. Heç kimin cavab verə bilməyəcəyi bu sualların hamısına İmam Muhəmməd Baqir (ə) cavab verdi.

Hamı heyrətlə bir-birinə baxır və dodaqlarının altında nəsə deyirdi. Qoca alim İmamdan və oğlundan xahiş edir ki, özlərini təqdim etsinlər. İmam həm özünü, həm də övladını təqdim edir.

Məclisdəkilərin hamısı sükuta qərq olur.

Bir qədər keçdikdən sonra qoca üzünü məclisdəkilərə tutaraq deyir:

“Nə qədər ki bu kişi sizin aranızdadır, bir daha mənim yanıma gəlməyin. Nə sualınız varsa, ondan soruşun!”



## İndi mənə de görüm!

Bu əhvalatdan nələri başa düşürsən?



## Oxu üçün

İmam Muhəmməd Baqir (ə) İmam Səccadın (ə) oğludur.

Alim olan Allah bütün elmləri İmam Muhəmməd Baqirə (ə) öyrətmişdir. Onun çoxlu yetirmələri olmuş, onların arasından böyük alimlər çıxmışdır.

O, dinin göstərişlərini və yaşam tərzini insanlara öyrədirdi.

İmam Muhəmməd Baqir (ə) də atası və babası kimi zalımlara qarşı mübarizə aparıb nəhayətdə bu yolda şəhid olmuşdur.

# 24

## Xəstə ziyarəti

Dostlardan biri xəstələnmişdi. Onlar qərara gəlirlər ki, onun evinə gedib ona baş çəksinlər. Yolda İmam Sadiqlə (ə) qarşılaşıb ona salam verirlər. İmam onların salamını gülərüzlə alıb soruşur: "Hara gedirsiz?

- Dostumuza baş çəkməyə gedirik, ağa.

- Onun üçün nə isə almısızmı?

- Xeyr, heç nə götürməmişik.

- Yaxşı olar ki, onun üçün bir şey aparasınız. Hədiyyə xəstənin ürəyini rahatladıb onu sakitləşdirir.



**İndi mənə de görüm!**

Əgər nə vaxtsa xəstələnsən, başqalarının sənin üçün nə etməsini və sənə qarşı necə davranmasını istərsən?



# 25
# Mehriban ev sahibi

İmam Cəfər Sadiqin (ə) qonağı var.
İmam onu mehribanlıqla qarşılayır.
Yanında əyləşib onunla söhbət edir.
Qonaq İmamla həmsöhbət olduğuna görə çox sevinir, ancaq İmam Sadiqin (ə) ona qulluq etməsinə görə xəcalət çəkir. Buna görə də yerindən qalxır ki, nəsə bir iş görsün. İmam Sadiq (ə) onun məqsədini başa düşəndə buna razı olmur. Ondan oturub rahat olmasını istəyir. Sonra isə ona buyurur: "Peyğəmbərimiz (s) buyurub ki, ev sahibi qonağın iş görməsinə icazə verməməlidir."



## İndi mənə de görüm!

Evinizə qonaq gəldikdə onu necə qarşılayırsınız?



## Oxu üçün

Altıncı imamımız Cəfər Sadiq (ə) İmam Muhəmməd Baqirin (ə) oğludur.

Həddən artıq doğru danışan və düzgün insan olduğuna görə ona "Sadiq" deyirdilər.

İmam Sadiq (ə) də atası kimi camaatı İslamın qayda-qanunları ilə tanış edirdi. Onun yetişdirdiyi tələbələrin sayı dörd minə çatırdı. Onların bəzisi öz dövrünün böyük alimləri olmuşdur.



# 26
# Ata ilə görüş



On yaşı var. Şəhərin ən ədəbli, ən əxlaqlı uşağıdır. Bunu hamı deyir.

Anası Hacər ona atası barədə danışsa da, hələ atasını görməmişdi.

Hacər deyir: "İnanıram ki, bu günlərdə atan mütləq gələcək".

***

Axşamüstüdür. Kişilər artıq çöldən qayıdıb çadırların qarşısındakı meydana toplaşıblar.
Birdən günbatan istiqamətdən hündürboylu, uzun ağ saçları olan bir kişi görünür. O, yavaş və ağır-ağır yeriyirdi.
Camaat onun qarşısına çıxır. Hacərlə İsmayıl hamıdan qabaq qaçır. Ata ilə oğul bir-biri ilə qucaqlaşanda ətrafdakılar yavaşca deyirlər: "Necə də oxşayırlar!"

***

Camaat həzrət İbrahimi (ə) həyat yoldaşını və oğlunu ehtiramla müşayiət edir.
Sevincdən İsmayılın gözləri parıldayır!
O, atasının əlindən tutub onunla birgə addımlayır.

***

Ata evə daxil olur. Bir qədər dincəlib yemək yeyir. Sonra İsmayılı qucaqlayıb ona nəvaziş göstərir. İsmayıl yavaşca, ədəblə atasına deyir: "Atacan, mən sizin barənizdə anamdan çox eşitmişəm. Ancaq indi istəyirəm ki, sizin həyatınız barədə öz dilinizdən eşidim".

***

İsmayıl (ə) atasının dizi üstdə oturub maraqla gözlərini onun dodaqlarına zilləyir.
Həzrət İbrahim (ə) öz əhvalatını danışmağa başlayır.
Mən sənin yaşında olduğum zamanlar...



## İndi mənə de görüm"

Həzrət İbrahimin (əleyhissəlam) həyatı barədə daha nələri bilirsən?



## Artıq bacararsan

Sən oxuduğun kitabların köməyilə dərsdə verilmiş əhvalatı tamamlaya bilərsən.

# 27 Salam vermək əvəzinə...



Ata yoldadır.

O öz-özünə deyir: "Evə çatanda oğlum qapını açıb mənə salam verər. Əhvalımı soruşar, əlimdəki torbanı alaraq mənə "Yorulmayasan" deyər. Mən bir qədər dincəldikdən sonra oğlum məktəb və dostları barədə danışar. Sonra da birlikdə güldanlara su tökərik. Bəlkə də birlikdə bir qədər oynayar, ya da gəzintiyə çıxarıq".

***

Ata evə təzəcə daxil olur.
Oğlu salam vermədən soruşur: "Ata, torbanda nə var? Meyvədir, yoxsa şirniyyat? Yeməlidir, yoxsa oyuncaq?" Hələ atasının üzündən yorğunluq keçməmiş qaşqabağını töküb deyir: "Məsudun atası hər gün onu özü ilə gəzməyə aparır. Bəs biz niyə gəzməyə getmirik?
Məcidin atası ona təzə bir velosiped alıb. Mənim velosipedim isə köhnədir..."
Atası sadəcə ona baxır.
Oğul atasının baxışlarından başa düşür ki, ...





## İndi mənə de görüm!

Oğul barədə sənin fikrin nədir?
Səncə, atası öz baxışları ilə ona nəyi başa salmaq istəyir?



## Artıq bacararsan

Əgər istəsən, özün bir əhvalat yaza bilərsən.
Bəs sən necə rəftar edərsən ki, əhvalatında atan səndən razı qalsın?

# Mənim duam

Ey mehriban Allah, mənim üçün çox əziyyət çəkmiş ata-anama kömək ol ki, salamat qalıb xəstələnməsinlər. Əgər xəstələnsələr də, çox tez sağalsınlar!
Allahım, mənə kömək ol ki, onlar üçün yaxşı övlad olum və hamı məndən razı qalsın!
Allahım, ...

## İndi mənə de görüm!

Səncə, ata-anan sənin üçün nə dua edir?

## Artıq bacararsan

Əgər istəsən, duanın davamını öz istədiyin kimi yaza bilərsən.



# 28 O mehribandır

Birinci sinifdə oxuyarkən bir gün karandaşımı itirdim. Narahat olub ağlamağa başladım. Ancaq o mənə nəvaziş göstərib başqa bir karandaş verdi.
O vaxtlar arada məktəbdə anam üçün darıxırdım. O mənimlə və dostlarımla oynayıb başımızı qatırdı. Məktəbə ilk getdiyimdə çox şey bilmirdim. İndi isə oxuyub-yazmağı, saymağı və ... bacarıram.
O, çox zəhmət çəkir.
O, çox savadlıdır.
O, hələ də məni çox istəyir.
O, ..............................................................



## İndi mənə de görüm!

Nə üçün müəllimini çox istəyirsən?
Ona necə təşəkkür edə bilərsən?



## Artıq bacararsan

Əgər istəsən, müəlliminə təşəkkür etmək üçün ona bir məktub yaza, yaxud bir rəsm çəkə bilərsən.
Hətta əl işlərindən birini ona hədiyyə də verə bilərsən.








Heavenly Gifts

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin
DK-430/B saylı, 21 iyul 2020-ci il tarixli məktubu ilə
çap olunmasına razılıq verilmişdir.

Çapa imzalanmışdır: 21.09.2020. Formati 60x84 1/8.
Sifariş No 48. Tiraj 500

"Zərdabi Nəşr" MMC Nəşriyyat Poliqrafiya müəssisəsi
Tel.: (012) 514 73 73, (050; 055; 070) 344 76 01
e-mail: zerdabi_em@mail.ru